# BƏLƏDİYYƏ HƏYATI

№15 (322) www.belediyye.info / e-mail: belediyye2015@gmail.com

İCTİMAİ - SİYASİ QƏZET

8 Avqust 2015-ci il

Qəzet 2003-cü ildən nəşr edilir


# BƏLƏDİYYƏLƏRƏ "MEŞƏ FONDU TORPAQLARININ MÜHAFİZƏSİ İLƏ BAĞLI" TÖVSİYYƏ GÖNDƏRİLİB

**Bununla bağlı Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzindən Belediyye.info saytına verilən məlumatda deyilir:**

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi bir sıra bələdiyyələr tərəfindən meşə fondu torpaqlarının qanunsuz olaraq mülkiyyətə ayrılması hallarına yol verilməsi və həmin ərazilərdə tikinti işlərinin aparılması ilə bağlı Ədliyyə Nazirliyinə müraciət edib.



Bildiririk ki, Torpaq Məcəlləsinin 31-ci maddəsinə uyğun olaraq meşə bitkiləri ilə örtülü olan, habelə bu bitkilərlə örtülü olmayan, lakin meşə təsərrüfatının ehtiyacları üçün nəzərdə tutulan meşə və qeyri-meşə torpaqları meşə fondunun torpaqları hesab edilir. Meşə fondu torpaqlarının özgəninkiləşdirilməsinə gətirən və gətirə bilən alqı-satqısına, girov qoyulmasına (ipotekasına) və digər əqdlərə, habelə başqa məqsədlər üçün istifadəsinə yol verilmir. Meşə fondu torpaqları ilə həmsərhəd torpaqların istifadəçiləri öz torpaq sahələrində meşələrin yanğından və digər fəlakətdən mühafizə edən tədbirlər görməlidirlər.

Meşə Məcəlləsinin 11-ci maddəsinə görə Azərbaycan Respublikasında meşə fondu dövlətə mənsubdur və onun mülkiyyətidir. Meşələr və meşə fondunun torpaqları özəlləşdirilmir. Həmin Məcəllənin 35-ci maddəsinə əsasən meşə təsərrüfatının idarə edilməsi və meşə fondundan istifadə ilə əlaqədar olmayan məqsədlər üçün meşə fondu torpaqlarının qeyri-meşə torpaqlarına keçirilməsi (və ya) meşə fondu torpaqlarının geri alınması Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı (Nazirlər Kabineti) tərəfindən həyata keçirilir.

İnzibati Xətalar Məcəlləsinin 70-ci maddəsinə əsasən meşə fondu torpaqlarının özbaşına tutulmasına və ya istifadə barəsində lazımi icazə olmadan həmin torpaq sahələrində tikinti işlərinin aparılmasına və ya digər işlərin görülməsinə görə fiziki şəxslər yeddi yüz manatdan min manatadək miqdarda, vəzifəli şəxslər üç min beş yüz manatdan beş min manatadək miqdarda, hüquqi şəxslər altı min beş yüz manatdan səkkiz min manatadək miqdarda cərimə edilir.

Cinayət Məcəlləsinin 188-ci maddəsinə əsasən torpaq üzərində qanunla müəyyən edilmiş mülkiyyət hüququnu pozma, yəni torpaq sahəsini özbaşına tutma, dəyişdirmə və ya becərmə cinayət məsuliyyəti yaradır. Eyni zamanda, Məcəllənin 314-1-ci maddəsində vəzifəli şəxs tərəfindən dövlətin müstəsna mülkiyyətində olan və özgəninkiləşdirilməsi qanunla qadağan edilən torpaq sahələrinin bələdiyyələrin, fiziki və ya hüquqi şəxslərin mülkiyyətinə, istifadəsinə və ya onlara icarəyə verilməsi haqqında qərar qəbul etməyə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

Göstərilənlərin bələdiyyə üzvləri və qulluqçuları tərəfindən öyrənilməsi, meşə fondu torpaqlarının mühafizəsi ilə bağlı zəruri tədbirlərin görülməsini tövsiyyə edirik.

***Belediyye.info***

## RƏSMİ XRONİKA



### Azərbaycanda dini mədəniyyətin, tolerantlığın, dinlərarası və mədəniyyətlərarası dialoqun təbliğinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycanda dini mədəniyyətin, tolerantlığın, dinlərarası və mədəniyyətlərarası dialoqun təbliğinin gücləndirilməsinin təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan "Dini mədəniyyətin inkişafı" fonduna 3,0 (üç) milyon manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 avqust 2015-ci il.

### Dərbənd şəhərində fəaliyyət göstərən Azərbaycan Dövlət Dram Teatrının binasının yenidən qurulması haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Rusiya Federasiyasının Dağıstan Respublikasının Dərbənd şəhərində XIX əsrin sonu – XX əsrin əvvəllərində həvəskar dərnək kimi fəaliyyətə başlayan Azərbaycan Dram Teatrı 1904-cü ildə rəsmi status, 1934-cü ildə dövlət teatrı statusu almışdır. Azərbaycanın görkəmli mədəniyyət xadimlərindən Mirzə Fətəli Axundzadənin, Əbdürrəhim bəy Haqverdiyevin, Üzeyir bəy Hacıbəylinin, Cəfər Cabbarlının, Səməd Vurğunun və digər sənətkarların əsərlərinin teatrın səhnəsində işıq üzü görməsi ona müxtəlif regionlarda çoxsaylı pərəstişkarlar qazandırmışdır.

Hal-hazırda teatrın yerləşdiyi binada şəraitin qənaətbəxş olmadığını, təchizatın müasir tələblərə cavab verməmdiyini nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Dərbənd şəhərində fəaliyyət göstərən Azərbaycan Dövlət Dram Teatrının binasının yenidən qurulması və təchizatı məqsədi ilə 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə ilkin olaraq 5,0 (beş) milyon manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 3 avqust 2015-ci il.

## BƏLƏDİYYƏ HESABATLARI

# Xanlıqlar bələdiyyəsi hesabat verdi

Qazax rayonu Xanlıqlar bələdiyyəsinin 2015-ci ilin birinci yarımilində gördüyü işlərin hesabatını "Bələdiyyə həyatı" qəzetinə təqdim edib.

Hesabatda deyilir:

Xanlıqlar bələdiyyəsi kəndin abadlaşması üçün imkan daxilində əlindən gələni əsirgəmir. Seçicilərinin etimadını doğrultmaq üçün kəndin problemlərini araşdıraraq, yaranmış problemlərin aradan qaldırılması üçün var gücü ilə çalışır.

Ötən hesabat dövründə Xanlıqlar bələdiyyəsi 9 nəfər üzvü ilə bərabər aşağıdakı işləri görmüşdür. Bunlara misal olaraq yolların təmiri, yol kənarlarını təmizləməsi, tənha qocalara himayədarlıq göstərmək, Novruz bayramı münasibəti ilə kənd ərazisində yerləşən "N" saylı Hərbi Hissədə əsgərlərlə görüş təşkil edərək, onları bayram sovqatları ilə sevindirmək və s. İşləri göstərmək olar.

Altı ay ərzində Xanlıqlar bələdiyyəsində 07 sayda protokol yazılıb qərar qəbul edilmişdir. Əhalidən 15-ə yaxın yazılı və şifahi ərizə və müraciətlər daxil olmuşdur ki, onların hamısına da yerindəcə baxılıb cavab verilmişdir. Kənardan daxil olan 09 sayda məktuba vaxtlı-vaxtında yazılı olaraq cavab verilmişdir.

Kənddə olan çətinliklərin haması bələdiyyənin üzərinə düşdüyü bir vaxtdan vergi və rüsumların yığılması üçün bələdiyyə tərəfindən vergi müfəttişləri təyin edilmişdir. Hazırda vergi müfəttişləri rüsum, torpaq və əmlak vergilərinin yığılması üçün bildirişlərin paylanması ilə məşğul olurlar. Yığılan vergilər və mövsümi verilən torpaq icarəsindən və torpaq satışından əldə olunan gəlirlər Xanlıqlar bələdiyyəsinin bankdakı və Poçtdakı xüsusi hesabına köçürülür. Kənddə görülən işlər də həmin vəsaitin hesabına görülmüşdür. Altı ay ərzində Xanlıqlar bələdiyyəsinin yerli büdcəsi aşağıdakı kimi olmuşdur:

2014-cü ildən qalıq 500,89 (beş yüz manat, səksən doqquz qəpik) manat, torpaq icarəsindən 1390,00 (bir min üç yüz doxsan) manat, torpaq vergisindən 819,18 (səkkiz yüz on doqquz manat, on səkkiz qəpik) manat, əmlak vergisindən 361,00 (üç yüz altmış bir) manat, dövlət tərəfindən ayrılan dotasiya 1075,00 (bir min yetmiş beş) manat, cəmi 4206,07 (dörd min iki yüz altı manat, yeddi qəpik) manat vəsait Xanlıqlar bələdiyyəsinin bankdakı və həmçinin poçtdakı xüsusi hesabına toplanmışdır.

Bələdiyyənin büdcəsinə yığılan vəsait hesabına kənddə olan problemləri aradan qaldırmaq üçün bir çox işlər görülmüşdür. Həmin vəsaitdən bələdiyyə işçilərinə əmək haqqı kimi 494,52 (dörd yüz doxsan dörd manat, əlli iki qəpik) manat, DSMF-yə köçürmə 1100,00 (bir min yüz) manat, imkansız və kimsəsizlərə yardım 72,00 (yetmiş iki) manat, kəndarası yolların təmirinə 475.00 (dörd yüz yetmiş beş) manat, Novruz bayramı münasibətilə əsgərlərə bayram sovqatı paylamaq üçün 400.00 (dörd yüz) manat.

Ümulilikdə, bələdiyyəyə altı ay ərzində cəmi 3384,12 (üç min üç yüz səksən dörd manat, on iki qəpik) manat pul xərclənmişdir. Bələdiyyənin bankdakı hesabında 696,00 (altı yüz doxsan altı) manat, poçtdakı hesabında 104,03 (bir yüz dörd manat, üç qəpik) manat köçürülmüşdür.

Gələcəkdə də bələdiyyəmiz əldə etdiyi gəlirlər hesabına kənddə quruculuq işlərini davam etdirəcəkdir.

***Ə. Alhüseynova***
***Xanlıqlar bələdiyyəsinin sədri***

# Qobustan bələdiyyəsi abidə kompleksini bərpa edib

**Qaradağ rayonu Qobustan bələdiyyəsindən Belediyye.info saytına daxil olan məlumata görə, yerli özünüidarəetmə orqanı olaraq 2015-ci ilin 6 ayı ərzində qəsəbədə bir sıra ciddi layihələr həyata keçirilib.**

İlk olaraq Qobustan qəsəbəsi II massivdə dəmir yolunun kənarında 500 metrlik ərazi məişət tullantılarından təmizlənərək 3 yerə 8 ədəd zibil qutusu qoyulub. 50-ci km ərazisindən 60-cı km əraziyə qədər olan yaşayış evlərinə gediş-gəliş çətin olduğu üçün əlavə çınqıl yol çəkilib, həmin ərazidə səkilər salınıb. Bununla yanaşı Qobustan qəsəbəsi 60-cı km də ərazisində olan 1050 kv.m sahəsi olan göl bələdiyyənin təşəbbüsü və əməkdaşlarının səyilə qurudulub.

Bələdiyyənin yaddaqalan layihələrindən biri də " Qələbə günü " münasibəti ilə 195 saylı orta məktəbin qarşısında yerləşən abidə kompleksinin bələdiyyənin daxili imkanları hesabına abadlaşdırılması olub.

***Belediyye.info***




# Rus dilində "Qarabağ ədəbiyyatı" elektron toplusu hazırlanır

**Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının yardımı ilə rus dilində "Qarabağ ədəbiyyatı" elektron toplusu hazırlanır.**

Mədəniyyət və Turizm Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, "Effektiv Təşəbbüslər Mərkəzi" İctimai Birliyinin həyata keçirdiyi layihə orta əsrlərdən müasir dövrədək Qarabağda yaşayıb-yaratmış 100-dən çox şair, yazıçı və mütəfəkkirin bioqrafiyası, yaradıcılığı və əsərlərindən nümunələri ilk dəfə toplu halında rusdilli oxuculara təqdim edəcək. Toplu ictimai birliyin 2009-cu ildən həyata keçirdiyi "www.azerbaycanli.org - milli eyniyyətdən qlobal dünyaya pəncərə" layihəsinin növbəti mərhələsidir. "Qarabağ ədəbiyyatı" toplusu www.azerbaycanli.org saytının rus versiyasında yerləşdiriləcək.

Mədəni irs hər bir xalqın yaşadığı torpaqda tarixini, qədimliyini sübut edən başlıca meyardır. Əzəli yurd yerimiz olan Qarabağda yaşayıb-yaratmış mütəfəkkir və ədiblərin zəngin irsi də bu baxımdan xüsusilə dəyərlidir. Bu irsin öyrənilməsi, tədqiq və təbliğ olunması, müxtəlif xarici dillərdə dünyaya çatdırılması böyük əhəmiyyət daşıyır. Rus dilində "Qarabağ ədəbiyyatı" toplusu da bu məqsədə xidmət edir.

***AZƏRTAC***


BƏLƏDİYYƏLƏRİN MÜSABİQƏ KOMİSSİYALARI HAQQINDA — Səhifə. 2

"MƏQSƏDİMİZ SEÇİCİLƏRİMİZİN ETİMADINI DOĞRULTMAQDIR" — Səhifə. 2

NƏRİMANOV BƏLƏDİYYƏSİ 11 AZTƏMİNATLI AİLƏNİ HİMAYƏYƏ GÖTÜRÜB — Səhifə. 3

KORRUPSİYAYA QARŞI MÜBARİZƏDƏ BƏLƏDİYYƏLƏR ÖZ SÖZÜNÜ DEMƏLİDİR — Səhifə. 4

# Bələdiyyələrin müsabiqə komissiyaları haqqında

**Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş mərkəzinin rəisi Mehdi Səlimzadənin imzasıyla bələdiyyələrə "Bələdiyyə qulluğuna qəbulun müsabiqə yolu ilə keçirilməsi barədə" metodik tövsiyyə məktubu göndərilib. Məktubda qeyd edilir:**



"Azərbaycan Respublikasının 13 fevral 2014-cü il tarixli Qanunu ilə "Bələdiyyə qulluğu haqqında" Qanuna bir sıra dəyişikliklər edilmişdir. Yeni dəyişikliyə görə yerli əhaliyə xidmət, iqtisadi və sosial inkişaf proqramlarını həyata keçirmək üçün yaradılan icra strukturlarının rəhbərlərini bələdiyyənin qərarına əsasən, digər işçiləri isə bələdiyyənin müsabiqə komissiyasının qiymətləndirməsinin nəticəsinə uyğun olaraq bələdiyyənin sədri təyin edir.

Qanuna əlavə edilmiş 5-1-ci maddəyə əsasən bələdiyyə qulluğuna vətəndaşlar müsabiqə əsasında qəbul edilirlər. Müsabiqənin keçirilməsi üçün 5 nəfər bələdiyyə üzvü və qulluqçusundan ibarət bələdiyyənin müsabiqə komissiyası yaradılır. Müsabiqə komissiyasının tərkibi, sədri və sədrinin müavini bələdiyyənin qərarı ilə təsdiq edilir. Müsabiqə komissiyası öz fəaliyyətini iclaslar vasitəsilə həyata keçirir və iclas komissiya üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir. Sədr olmadıqda iclaslara sədrin müavini sədrlik edir.

Müsabiqə komissiyasının işinə müdaxilə yolverilməzdir. Müsabiqə komissiyası namizədlərin müvafiq vəzifəyə uyğunluğunu onların bilik səviyyəsinə, peşə hazırlığına, ümumi dünyagörüşünə və müvafiq vəzifə üçün tələb olunan keyfiyyətlərə əsasən qiymətləndirir. Komissiyanın işinə müvafiq sahələr üzrə ekspertlər cəlb edilə bilər.

Qanuna əlavə edilmiş 5-2-ci maddəyə görə müsabiqə komissiyası üzvlərinin müsabiqə komissiyasının səlahiyyətlərinə aid məsələlərin həllində iştirak etmək, təkliflər vermək, habelə bu komissiyanın qərar, protokol və digər sənədləri ilə tanış olmaq, onlarla razılaşmadıqda xüsusi rəy vermək hüququ vardır.

Müsabiqə komissiyasının üzvləri müsabiqə zamanı namizədin şəxsiyyətinə və fikirlərinə hörmətlə yanaşmalı, namizədə müvafiq vəzifəyə yararlı olub-olmaması barədə fikir bildirməməli, müsabiqənin keçirildiyi otağı tərk etməməli, rabitə vasitələrindən istifadə etməməlidirlər.

Müsabiqə komissiyasının üzvü namizədlərdən hər hansı biri ilə yaxın qohumluq, şəxsi yaxınlıq, asılılıq münasibətində olduqda, yaxud obyektiv qiymətləndirməyə mənfi təsir edə bilən hallar mövcud olduqda, özü-özünə etiraz etməlidir. Eyni qaydada namizəd belə əsaslar olduqda, müsabiqə başlamazdan əvvəl müsabiqə komissiyasının hər hansı üzvünə (üzvlərinə) etiraz edə bilər. Bu maddənin dördüncü hissəsinə uyğun olaraq əsaslandırılmış etiraz verildikdə, barəsində etiraz verilmiş müsabiqə komissiyası üzvü həmin etirazın verilməsinə səbəb olmuş namizədə münasibətdə müsabiqə komissiyasının qiymətləndirməsində iştirak edə bilməz. Əgər etiraz nəticəsində müsabiqə komissiyasının fəaliyyətini həyata keçirməsi mümkün olmazsa, həmin namizədə münasibətdə müsabiqə komissiyası yenidən təşkil olunur.Müsabiqə komissiyasının iclaslarında baxılan məsələlər üzrə qərarlar açıq səsvermə və sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda, sədrlik edənin səsi həlledicidir. Müsabiqə komissiyasının iclası protokollaşdırılır, protokol iclasda iştirak edən bütün müsabiqə komissiyası üzvləri tərəfindən imzalanır. Müsabiqə komissiyası üzvünün xüsusi rəyi olduqda, protokolda bununla bağlı qeyd aparılır və xüsusi rəy protokola əlavə olunur.Müsabiqə zamanı namizədin arzusu ilə video çəkilişdən istifadə edilə bilər. Bu halda videoçəkiliş müsabiqə komissiyasının normal fəaliyyətinə maneçilik törətməməlidir.

Müsabiqənin nəticəsi ilə razı olmayan namizədlər həmin nəticələr elan olunduğu gündən 30 gün müddətində Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada bələdiyyəyə və ya məhkəməyə şikayət verə bilərlər.

Qanuna əlavə edilmiş 5-3-cü maddəyə uyğun olaraq bələdiyyə qulluğuna qəbulla bağlı məhdudiyyətlər müəyyən edilmişdir. Belə ki, namizəd fəaliyyət qabiliyyətinə malik deyilsə və ya məhdud fəaliyyət qabiliyyətinə malik olması məhkəmənin qərarı ilə təsdiq edilərsə, məhkumluğu ödənilməmiş və ya götürülməmişsə, bələdiyyənin sədri, bələdiyyə sədrinin müavinləri və bilavasitə tabeliyində və ya nəzarəti altında işləyəcəyi bələdiyyə qulluqçusu ilə yaxın qohumluq və ya qudalıq (ər-arvadlar, onların valideynləri, qardaşları, bacıları, övladları) əlaqəsi olduqda, barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olarsa, bu hallarda bələdiyyə qulluğuna qəbul edilə bilməz.

Qanunun 5-1-ci maddəsinin sonuncu hissəsinə görə müsabiqənin elan edilməsi, sənədlərin qəbulu, keçirilməsi və nəticələrinin qiymətləndirilməsi qaydası Nazirlər Kabineti tərəfindən müəyyən edilir. Həmin qayda təsdiq edildikdən sonra əlavə məlumat veriləcəkdir.

# Mirbaba Hüseynov: "Məqsədimiz seçicilərimizin etimadını doğrultmaqdır"

**Azərbaycan qəsəbə bələdiyyələri arasında Xəzər rayonu Mərdəkan bələdiyyəsinin öz yeri və çəkisi vardır. Formalaşdığı illərdən bu günədək bir çox layihələrə imza atan bələdiyyə bu gün seçicilərinin etimadını doğrultmaq üşün əlindən gələni əsirgəmir və daim seçicilərinin problemlərinin həllinə çalışır. Bu gün Mərdəkan sakinlərinin üz tutduqları ünvan yalnız Mərdəkan bələdiyyəsidir. İstənilən problemin həlli ilə bağlı bələdiyyəyə edilən müraciətlər diqqətdən kənarda qalmır.**

Respublika üzrə ilk internet resursunun yaradılması, inzibati binada şəbəkənin qurulması və müasir informasiya texnologiyalarından səmərəli şəkildə istifadə edilməsi Mərdəkan bələdiyyəsinin uğurlarından sayılır.

Fəaliyyətlərində əsas məqsəd aztəminatlı ailələrə dəstək verilməsi, qəsəbənin yaşıllaşdırılması, habelə qəsəbənin təmizliyinə çalışmaqdır. Fəaliyyətləri ilə təcrübəsi yayılmalı olan bələdiyyə mediaya hesabat verməyi də unutmur.

"Bələdiyyə həyatı" qəzetinin bu və digər suallarını cavablandlıran Mərdəkan bələdiyyəsinin sədri Mirbaba Hüseynov sədrlik etdiyi qurumun bələdiyyə qanunvericiliyinin tələblərinə uyğun olaraq fəaliyyət göstərdiyini qeyd edib. Sədrin sözlərinə görə, bələdiyyə daim Azərbaycan Respublikası Konstitusiyasına, yerli özünüidarəetməyə dair qanunlara, ölkə prezidentinin fərman və sərəncamlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına, digər hüquqi-normativ aktlara müvafiq olaraq fəaliyyət göstərir: "Bələdiyyələr, o cümlədən mənim rəhbərlik etdiyim bələdiyyə bu gün ölkəmizin sosial-iqtisadi və mədəni həyatında öz tövhələrini verməkdədir. Bu sahədə əvvəlki illərdən fərqli olaraq, inkişafın, tərəqqinin, təcrübənin artması göz önündədir. Bələdiyyələr fəaliyyətlərini getdikcə təkmilləşdirir, maliyyə və digər imkanlarını genişləndirir. Təbii ki, bu sahədə əldə olunan uğurlar dövlətin və onların yerlərdəki orqanlarının bilavasitə qayğısı və diqqəti sayəsində əldə olunur."

Qeyd edək ki, vətəndaşların qəbulu, onların müraciətlərinə baxılması və hesabatın verilməsi bələdiyyənin diqqət mərkəzindədir. Üzərimizə düşən əsas yük ilk növbədə korrupsiyaya qarşı mübarizədə şəffaflığın təmin edilməsi, görülən işlər barədə sakinlərə mütəmadi olaraq məlumat verilməsi ilə bağlıdır. Bələdiyyənin fəaliyyəti barədə məlumatların mətbuatda dərc edilməsi, korrupsiyaya qarşı mübarizədə şəffaflığın təmin edilməsi, o cümlədən görülən işlərin ictimaiyyətə çatdırılması fəaliyyətimizin əsas istiqamətlərindədir.

Əlavə edək ki, altı ay ərzində Mərdəkan bələdiyyəsinin 6 iclası keçirilmişdir. Keçirilmiş bələdiyyə iclaslarında bələdiyyənin icra aparatının, daimi komissiyaların iş planları təsdiqlənmişdir. Qeyd edək ki, ötən dövr ərzində Mərdəkan bələdiyyəsinə 137 ədəd məktub və 30 ərizə daxil olmuşdur. Müxtəlif məsələlərlə bağlı bələdiyyə rəhbərliyi tərəfindən 255 vətəndaş qəbul edilmişdir."Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq, daxil olan məktub, ərizə və şikayətlərin hər birinə vaxtında baxılmış, nəticəsi barədə onlara məlumat verilmişdir.




Ötən dövrdə aztəminatlı ailələrin maddi durumu da diqqət mərkəzində saxlanılmışdır. Altı ay ərzində qəsəbədəki aztəminatlı, imkansız ailələrin 33 nəfərinə, o cümlədən, 3 sakinin yas mərasiminin keçirilməsinə maddi yardım göstərilmişdir. O cümlədən "20 Yanvar faciəsi"nin 25 illiyi ilə əlaqədar, 20 Yanvar əlilinin hər birinə 50 (əlli) manat pul vəsaiti və ərzaq yardımı, Xocalıdan olan şəhid ailələrinə, Çernobıl əlillərinə və ümumi səbəbdən əlil olan şəxslərə ərzaq yardımı ilə köməklik olunmuşdur.

Alman-Faşizm üzərində Qələbənin 70 illiyi ilə əlaqədar, müharibə iştirakçılarına 50 manat pul vəsaiti və ərzaq yardımı ilə köməkilik göstərilmişdir. Həmçinin, müharibə iştirakçısı Mansurov Ələs Əsgər oğluna 90 illik yubileyilə əlaqədar qol saatı təqdim edilmişdir.

Fəaliyyətmizdə məktəb yaşlı uşaqları da unutmamışıq. Qəsəbə məktəblərində "Beynəlxalq Ailə Günü" münasibətilə keçirilən inşa-yazı müsabiqəsinin 3 qalib şagirdinə və məktəb həyətini yaşıllaşdırmaq, abadlaşdırmaq, qorumaq məqsədilə keçirilən "Təbiəti sevənlər" müsabiqəsinin 3 qalibinə pul mükafatı verilmişdir.

Qəsəbədə aparılan yaşıllaşdırma işləri ilə əlaqədar sakinlərin müraciətlərini nəzərə alaraq, Tibbi Reabilitasiya xəstəxanasına və H.Z.Tağıyev adına 123 №-li tam orta məktəbə şam ağacı və müxtəlif bəzək kolları alınıb verilmişdir. Bununla yanaşı "Bakı-2015" 1-ci Avropa Oyunlarının açılışı ilə əlaqədar, H.Z.Tağıyev küçəsindən "Dalğa Arena" İdman Mərkəzinə qədər olan ərazidə iməcliklər keçirilmiş və bir zolaq hissədə 400-ə yaxın şam ağacı əkilmişdir.

Mərdəkan qəsəbəsinə daxil olarkən, ərazidə təmizlik, yaşıllaşdırma və ekoloji mühitin mühafizəsi ilə əlaqədar, Şağan qəsəbəsi ilə həmsərhəd hissəyə döşənmiş qazon qatı mütəmadi olaraq suvarılır və bu işlər davam etdirilir.

Yeni yolun Buzovna-Mərdəkan-Qala avtomobil yolunun üstündə 1000-ə yaxın əkilmiş Xan çinarlar vaxtlı-vaxtında suvarılır və onlara aqrotexniki qulluq göstərilir.

Qəsəbənin S.Yesenin küçəsindən, "Dalğa-Arena" İdman Mərkəzinə qədər olan ərazidən, Dəmiryolçular, Muxtar Hüseynov küçələrindən, Bağlar massivindən məişət-tullantıları mütəmadi olaraq yığılıb daşınmışdır.

Söhbətimizin sonunda Mirbaba Hüseynov maraqlı bir məqama da toxunmağı unutmadı: "Problemlər həmişə olub, olacaqdır. Əsas məqsədimiz problemlərin həllinə çalışmaqla seçicilərimizin etimadını doğrultmaqdır"

Beləliklə, Mərdəkan bələdiyyəsinin fəaliyyəti ilə tanış olduq. İnanmaq olar ki , bələdiyyə bundan sonrakı illərdə də seçicilərinə verdikləri sözə əməl etməklə, yerli əhəmiyyətli məsələlərin həllində öz töhvələrini verəcəklər.

*"Bələdiyyə həyatı" qəzeti*

## Əmlak vergisini onlayn ödəmək mümkün olacaqdır - NƏSİMİ RAYONUNDA

**"Nəsimi bələdiyyəsi ilk dəfə olaraq özünün rəsmi saytı vasitəsiylə onlayn ödəmə sistemini tətbiqinə başlayıb. Hər bir rayon sakini ona təqdim edilən bildirişə uyğun olaraq sayta daxil olmaqla kart vasitəsiylə bələdiyyəyə olan borclarını ödəyə biləcəkdir."**

Bu barədə belediyye.info saytına açıqlamanı Nəsimi Bələdiyyəsinin sədri Nazim Qaraxanov verib. Onun sözlərinə görə, bələdiyyə üzvlərin mart ayında keçirilən iclasında məhz bu addımın icra olunması qərara alınıb. Yerli büdcənin imkanları hesabına yaradılan saytda qeydiyyatdan keçməklə banka və ya poçta getmədən vergiləri ödəmək mümkün olacaqdır. Bununla həm şəffalıq prinsiplərinin qorunmasına nail olunacaq, həm də bələdiyyənin digər təşkilatlara ödəyəcəyi əlavə xidmət haqqı öz büdcəsində qalacaqdır.

Sədrin sözlərinə görə, artıq "E-manat" sistemiylə verginin ödənilməsiylə bağlı danışıqlarda başlanılıb. Yaxın günlərdə bu sistem vasitəsiylə də ödəniş etmək mümkün olacaqdır.

*Belediyye.info*

## Xəbərlər

### Yasamal bələdiyyəsi məhəllə komitələrinin sayını artırıb

**Yasamal bələdiyyəsindən Belediyye.info saytına daxil olan məlumata görə, əhali ilə birgə fəaliyyətin vacibliyini nəzərə alaraq 2015-ci ilin birinci yarımilində 10 yeni məhəllə komitəsi yaradılıb.**

Bununla da Yasamal bələdiyyəsində məhəllə komitələrinin sayı 84-ə çatdırılıb. Bələdiyyə yeni məhəllə komitələrinin yaradılması istiqamətində işlərini davam etdirir.

Bələdiyyədən daxil olan məllumatda qeyd edilir ki, cari ildən bələdiyyə yeni təkliflə çıxış edib. Belə ki, bələdiyyə iclasının qərarı ilə məhəllələrdə abadlıq-quruçuluq işləri, ilk növbədə daha çox vergi ödəyən məhəllə komitələrinin ərazisində aparılması müəyyənləşdirilib. Belə bir qərarın qəbul edilməsində məhəllə komitələri də iştirak etmiş və stimullaşdırıcı amil kimi bu təcrübə tərəfimizdən son illərdə uğurla tətbiq edilir. Bələdiyyə büdcəsinə ödənilən vergilərin əsasən də məhəlləsinin abadlaşdırılmasına və orada yaşayan az təminatlı ailələrə maddi yardımlara yönəldilməsi barədə məlumatı olan və qonşu məhəllələrin timsalında bunu faktiki görən sakinlər vergilərin vaxtında ödənilməsində özləri maraqlı olurlar. Təcrübə göstərir ki, məhəllələrin abadlaşdırılması zamanı yerli əhalinin bələdiyyə işinə cəlb edilməsi, bələdiyyə fəaliyyətində şəffaflığın təmin edilməsinin əsas şərti kimi ictimai nəzarətin həyata keçirilməsinə şərait yaratmaqla bərabər, yerli əhalidə təşəbbuskarlığı da artırmış olur. Eyni zamanda istifadəyə verildilkdən sonra abadlaşdırılmış məhəllələrin qorunub saxlanması və yaşıllıqlara xidmət edilməsi işinin təşkilini maraqlı tərəf kimi məhəllə sakinləri öz üzərinə götürürlər.

*Belediyye.info*

### Bərdə bələdiyyəsi reklamdan daxil olan ödənişlərin həcmini artıra bilib

**Bərdə bələdiyyəsindən Belediyye.infoya daxil olan məlumata görə, 2015-ci ilin altı ayı ərzində bələdiyyənin 48.881 manat gəliri olub.**

Bu vəsaitin 15.117 manatı fiziki şəxslərdən torpaq və 2669 əmlak vergisi təşkil edib. Əmlakın icarəsindən daxil olan vəsaitin həcmi isə 13.986 manat olub. Yeni tərkibdə olan bələdiyyə ilk dəfə olaraq reklamdan daxil olan ödənişlərin həcmini artıra bilib. Altı ay ərzində reklamdan 12.285 manat yerli büdcəyə vəsait daxil olub.

*Belediyye.info*

### Bələdiyyə əmlak vergisinin yığımına diqqəti artırıb

**Mərdəkan bələdiyyəsindən Belediyye.info saytına daxil olan məlumata görə, yerli özünüidarəetmə orqanı tərəfindən qanunvericilikdə müəyyən edilmiş qaydada yerli vergi ödəyicilərindən, büdcənin gəlirləri 20 15-ci ilin 6 ayı ərzində 75140 manat təşkil edib.**

Daxil olan vəsaitdən 12291 manatı fiziki şəxslərdən torpaq vergisi, 46781 manatı fiziki şəxslərdən əmlak vergisi, 4988 manat küçə reklamının yerləşməsinə görə ödəniş, 880 manatı məişət tullantılarının daşınmasından daxil olub.

*Belediyye.info*

### Şəlalə Bədəlova: "Vətəndaşlar əsasən bələdiyyəyə torpaqla bağlı müraciət edirlər"

**"Vətəndaşlar indi-indi əmlak və torpaq vergisini ödəməyə maraq göstərir". Bu fikirləri belediyye.info saytına açıqlamasında Səngəçal bələdiyyəsinin sədri Şəlalə Bədəlova deyib: "Demək olmaz ki, bu proses sürətlə gedir. Amma bələdiyyə tərəfindən aparılan maarifləndirmə işləri nəticəsində əhali vergilərin ödənilməsinə maraq göstərir.**

Bizim qəsəbə kiçikdir və həm də əvvəl əmlak vergisi 40 qəpikdən müəyyən olunmuşdur, lakin bu rəqəm sonra zonalara görə dəyişdi. Ona görə də bizdə ötən ayda ləngimələr oldu. Bu səbəbdən də ötən 6 ayda göstəricilərimiz zəifdir. Amma buna baxmayaraq, son 6 ayda yığım təxminən 3 min manat dəyərindədir".

Ş.Bədəlova deyib ki, bələdiyyənin heç bir borcu yoxdur. Onun sözlərinə görə, həmçinin bələdiyyə əməkdaşlarının əmək haqları ödənilir və bu sahədə hər hansı problem olmayıb: "Bələdiyyəyə əlavə gəlir mənbəyi yaratmaq məsələsinə gəlincə, onu deyə bilərəm ki, bizim qəsəbəmiz kiçikdir və burada hər hansı biznes strukturu olsun. Qəsəbəmiz dəniz kənarındadır və balıqçılıqla məşğul olanlar var. Biz onlara vergi ödəmək üçün müraciət etmişik. Onlar da hələ ki, vergi ödəməyiblər. Sadəcə, onlar indiyədək vergiyə cəlb olunmayıb və biz bu ildən bunu tətbiq etməyə başlamışıq. İnanıram ki, buna nail olacağıq".

Bələdiyyə sədri qeyd edib ki, hər hansı problemin həllində icra hakimiyyəti lazımi dəstək göstərir. Ş.Bədəlova qeyd edib ki, vətəndaşlar əsasən bələdiyyəyə torpaqla bağlı müraciət edirlər: "Amma hər kəsə məlumdur ki, torpaq satışı hərrac vasitəsilə həyata keçirilir. Lakin məlum səbəblərdən hərrac komissiyası fəaliyyət göstərmir. Buna baxmayaraq, bizə müraciət edən vətəndaşların ərizələrini qəbul edirik və komissiya fəaliyyətə başladıqdan sonra bu məsələlərə baxılacaq".

*Bəxtiyar Məmmədli*

# Binəqədi bələdiyyələri ilk dəfə mətbuat qarşısında Hesabat verdilər

**23 iyul 2015-ci il tarixdə Binəqədi rayonu bələdiyyələri tərəfindən Azərbaycan milli mətbuatının 140 illik yubileyi münasibətilə "Bələdiyyə-mətbuat əməkdaşlığı: yeni mərhələ və hesabatlılıq" adlı tədbir keçirildi.**

Tədbirdə Azərbaycan Qəsəbə Bələdiyyələrinin Milli Assosasiyasının sədri, Rəsulzadə Bələdiyyəsinin sədri Hümbət Hüseynov, Binəqədi Bələdiyyəsinin sədri Sitarə Cabbarlı, Binəqədi Qəsəbə Bələdiyyəsinin sədri Aytac Əliyeva, Biləcəri Bələdiyyəsinin sədri Hikmət Quliyev, Xocasən Bələdiyyəsinin sədri Anar Abbasov, bələdiyyə üzvləri və bələdiyyə qulluqçuları, kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etdilər.

Tədbir başlamazdan öncə Ağdamın işğal olunmasının 22-ci ildönümü 1 dəqiqəlik sükutla yad edildi.

Sonra tədbiri giriş sözü ilə açan Azərbaycan Qəsəbə Bələdiyyələrinin Milli Assosasiyasının sədri, Rəsulzadə Bələdiyyəsinin sədri Hümbət Hüseynov tədbir iştirakçılarını salamlarayaq Azərbaycan Milli Mətbuatının 140-cı ildönümünü münasibətilə kütləvi informasiya vasitələrinin nümayəndələrini təbrik etdi, fəaliyyətlərində müvəffəqiyyətlər, yaradıcılıq uğurları arzu etdi. Bildirdi ki, bu gözəl bayram ərəfəsində jurnalistlərin böyük bir qrupu - 200-ə yaxın mətbuat işçisi Prezidentin Sərəncamı ilə orden, medal və fəxri adlarla təltif olundu və onlardan bir neçəsi həmin bu tədbirdə iştirak edir. Hümbət Hüseynov vurğuladı ki, dövlət başçısının imzası ilə mükafatlandırılmaq, həm də "Tərəqqi" medalı ilə mükafatlandırılmaq böyük bir şərəfdir.



Rəsulzadə bələdiyyəsinin sədri bildirdi ki, bu günki görüşün təşkilində məqsəd həm jurnalist dostlarımızın bayram sevincinə sevinc qatmaq, həm də bələdiyyə olaraq ictimaiyyət qarşısında hesabat verməkdir: "2015-ci ilin 1-ci yarımilliyində yerli özünüidarəetmə orqanlarının fəaliyyəti uğurlu olub. Binəqədi rayonunda mövcud olan bələdiyyələr onların qarşısında duran vəzifələri layiqincə yerinə yetirərək abadlaşdırma və quruculuq işlərində fəal iştirak edib, sosial-iqtisadi layihələr həyata keçiriblər. Bütövlükdə, bələdiyyə idarəçiliyinin səmərəliliyi daha da artıbdır. Bələdiyyələrin yerli əhali ilə qarşılıqlı münasibətləri xeyli yaxşılaşıb, ictimai əlaqələri güclənib".

Hümbət Hüseynovun qeyd etdi ki, "2014-cü il bələdiyyə seçkiləri həm kəmiyyət, həm keyfiyyət baxımından, eləcə də yeni tərkibdə bələdiyyə üzvlərin mövcud fəaliyyəti ötən illərdə bələdiyyə strukturu ilə bağlı formalaşmış stereotipləri sındırmış oldu. Son 6 ay ərzində elə Binəqədi rayonundakı bələdiyyələr öz fəaliyyətləri, əməli işləri ilə, həyata keçirdikləri sosial layihələrlə bütün bu mifi dağıtdı. Bələdiyyələrin fəaliyyətinə son dərəcə diqqətlə, səmimiyyət və həssaslıqla yanaşan mətbuat haqqımızda müsbət ictimai fikrin formalaşmasında yardımçı olur. Təbii ki, bu, bələdiyyə-mətbuat əməkdaşlığının yeni mərhələyə qədəm qoymasının bariz nümunəsidir".

Binəqədi Bələdiyyəsinin sədri Sitarə Cabbarlı çıxış edərək vurğuladı ki, bələdiyyə idarəçiliyindəki səmərəlilik getdikcə artır. Ölkəmizin sürətli inkişafı, idarəetmənin ən müasir tələblər səviyyəsində qurulması əhali arasında müasir ödəniş mədəniyyətini formalaşdırır. Şəffaflığı təmin etməyin əsas vasitələrindən biri isə bütün əməliyyatların nağdsız ödəniş yolu ilə həyata keçirilməsidir. Bələdiyyələr də bu prosesdən kənarda qala bilməz. "Yerli vergilər və ödənişlər haqqında" Qanuna edilən dəyişiklikdən sonra ödənişlər banklar, poçt rabitəsinin milli operatoru, habelə mövcud nağdsız ödəmə vasitələri ilə həyata keçirilir. 2015-ci ilin yanvarın 1-dən əmlak və torpaq vergiləri yeni qaydada hesablanır. Bu dəyişikliklər bələdiyyələrin vergi yığımında üzləşdikləri problemlərin aradan qaldırılmasında mühüm rol oynayacaq.

Binəqədi Qəsəbə Bələdiyyəsinin sədri Aytac Əliyeva bələdiyyə-sakin münasibətlərinə toxunaraq bildirdi ki, sakinlər arasında nüfuzun geri qaytarılması başlıca məqsədlərimizdən biridir: "Bu məqsədlə də bir sıra addımlar atılır. Bələdiyyənin yerlərdə sakinlərlə səyyar görüşlərini təşkil edilir. Məhəllə komitələri yaradılır və onlar vasitəsilə sakinlərə daha yaxın olur, onların problemlərini daha az vaxt sərf etməklə öyrənə bilirik. Sosial şəbəkələrdə yaradılmış səhifələrimiz də sakin məmnuniyyətinə xidmət edir".

Biləcəri Bələdiyyəsinin sədri Hikmət Quliyev və Xocasən Bələdiyyəsinin sədri Anar Abbasov bələdiyyə ərazisində görülən işlərdən danışdılar, həyata keçirilən layihələr və qarşıda duran vəzifələ barədə məlumat verdilər. xüsusi vurğuladılar ki, dövlət tərəfindən bələdiyyələrə göstərilən diqqət və verilən hərtərəfli dəstək onların işini daha da yaxşılaşdırıb, yerli sosial-iqtisadi məsələlərin həlli imkanlarını artırıb.

Binəqədi rayonu təmsil edən 5 bələdiyyənin 6 aylıq hesabatı dinlənildikdən sonra bələdiyyə sədrləri jurnalistləri maraqlandıran sualları cavablandırdılar.

Sonda Kütləvi İnformasiya Vasitələrinin bir sıra nümayəndələri Milli Mətbuatın 140 illik yubileyi münasibətilə və Azərbaycan bələdiyyələrinin fəaliyyətinin uğurlu işıqlandırılmasına görə "Bələdiyyə dostu" Fəxri Diplomu və mükafatlarla təltif olundular.

*Belediyye,info*

# NƏRİMANOV BƏLƏDİYYƏSİ 11 AZTƏMİNATLI AİLƏNİ HİMAYƏYƏ GÖTÜRÜB



Nərimanov bələdiyyəsinin sədri Təmraz Tağıyev yerli özünüidarəetmə orqannın altıaylıq fəaliyyətiylə bağlı seçicilərinə hesabat verib. "Bələdiyyə həyatı" qəzetinə təqdim edilən hesabatın ən önəmli məqamlarını oxucuların diqqətinə çatdırırıq.

***

23 dekabr 2014-cü il tarixdə keçirilmiş Bələdiyyə seçkilərindən sonra yeni seçilmiş 19 nəfər bələdiyyə üzvü 30 yanvar 2015-ci il tarixdən öz səlahiyyətlərinin icrasına başladı. Qeyd edək ki, "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununa əsasən yeni seçilən 19 bələdiyyə üzvündən 5-i vəzifələrini daimi əsaslarla icra edir. Bələdiyyə üzvlərinin səlahiyyətləri təsdiq olunduqdan sonra daimi komissiya üzvləri öz aralarında komissiya sədrlərini seçdilər. Hazırda bələdiyyədə beş komissiya fəaliyyət göstərir:

1.Yerli sosial məsələləri və gənclərlə iş daimi komissiyası

2.Yerli iqtisadi inkişaf məsələləri daimi komissiyası

3.Yerli büdcə məsələləri daimi komissiyası

4.Yerli ekologiya məsələləri daimi komissiyası

5.Hüquq məsələləri daimi komissiyası

Fəaliyyətə başlayarkən atılan ilk addım 2015-ci il üçün büdcə və ştat cədvəlinin təsdiq edilməsi oldu. Büdcənin sosial yönümlü olmasını nəzərə alaraq büdcə planında sosial və iqtisadi inkişaf məsələlərinin həlli üçün maliyyə imkanları nəzərdə alındı.

Xatırladaq ki, Nərimanov Bələdiyyəsinin büdcəsinin əsas gəlirləri əmlak və torpaq vergisindən, bələdiyyə əmlakının icarəyə verilməsindən, mehmanxana rüsumu, gecə və son dayanacaqlarından yığılan vergilərdən və sairdən maliyyə istiqamətlərindən formalaşır.

Büdcəyə daxil olmuş vəsait hesabına bələdiyyə ərazisində yaşayan, sosial cəhətdən ehtiyacı olan 13 ailəyə birdəfəlik maddi yardım edilməklə, bələdiyyə tərəfindən 11 ailə himayəyə götürülüb.

***

Bundan əlavə ötən altı ay ərzində bələdiyyənin inzibati binasında 20 yanvar- Ümumxalq hüzn günü və Xocalı faciəsi ilə əlaqədar anım tədbiri keçirildi.

Xalqımızın milli bayramı olan Novruz bayramı yüksək səviyyədə qeyd edildi. Tədbirə rayon ərazisində yerləşən cəmiyyətlər, kimsəsiz qocalar, aztəminatlı və şəhid ailələri dəvət edilmişdi. Bu tədbirlərdə 200 ailəyə bayram payları paylanmışdı.

Nərimanov Bələdiyyəsi rayon ərazisində iməcliklər keçirərək yaşıllaşdırma işlərini davam etdirir, yeni tinglər əkir. Habelə yol boyunca əkilmiş ağacların dibləri bellənmiş, təmizlənmiş, suvarılmış və əhənglə ağardılmışdır.

May ayında bələdiyyənin təşəbbüsü ilə ən maraqlı görüşlərdən biri baş tutdu.

May ayında Nərimanov Bələdiyyəsinin inzibati binasında rayon sakinləri ilə görüş keçirildi. Tədbirdə məhəllə komitələrinin fəaliyyəti barədə qısa məlumat verməklə, məhəllə komitələrinin yaradılmasını təklif edildi. Tədbirdə ciddi müzkirəlrdən sonra Nərimanov Bələdiyyəsinin ərazisində daha səkkiz yerdə məhəllə komitələrinin yaradılması təklif edildi.

***

"Uşaqlar cəmiyyətimizin sabahıdır", onların qayğısız böyüməsi, yüksək standartlara cavab verən təlim-tərbiyə və tibbi xidmətlərlə təmin edilməsi, əlverişli sosial mühitdə fiziki və mənəvi baxımdan sağlam yetişməsi bələdiyyəmizin əsas məqsədidir. Hər il olduğu kimi bu il də 1 iyun "Uşaqların Beynəlxalq Müdafiə Günü" münasibəti ilə rayon ərazisində yerləşən 49 № li körpələr evi-uşaq və 89 №-li sanator tipli uşaq bağçalarında bayram şənliyi təşkil edilmiş, şirniyyat stolları açılmış, musiqili-əyləncəli proqramlar təşkil olunmuş və uşaqlara hədiyyələr təqdim edilmişdir.

***

Nərimanov Bələdiyyəsi rayon ərazisində abadlıq işlərini davam etdirir. Növbəti abadlıq işləri N.Hacıyev küçəsi 13 və F.Yusifov küçəsi 28 saylı binaların həyətində asfalt örtüyü təzələnmiş və sakinlərin rahat gediş-gəlişi təmin edilmişdir.

***

2015-ci ilin II rübündə bələdiyyəyə daxil olmuş 368 ərizə və məktublara vaxtlı-vaxtında baxılmış və cavablandırılmışdır.

***

Nərimanov Bələdiyyəsi gördüyü işlərlə kifayətlənmir, rayonun daha da gözəlləşməsi, abadlaşması və sakinlərin xoş rifahı üçün daha dinamik, daha mütəşəkkil işləməyi öz öhdəsinə götürərək onun icrasını layiqincə həyata keçirir.

*"Bələdiyyə həyatı" qəzeti*

# İntizar Rzayeva: "Bələdiyyə ərazisində sənədsiz evlər çoxdur"

**"Əmlak və torpaq vergisinin toplanması ilə bağlı, bir qayda olaraq yeni sistemə keçdikdən sonra çətinliklər olur. Bu hər zaman belə olub və buna baxmayaraq, biz maarifləndirmə işlərini davam etdiririk".**

Bu fikirləri belediyye.info saytına açıqlamasında Ramana bələdiyyəsinin sədri İntizar Rzayeva deyib. Onun sözlərinə görə, əvvəllər bu vergilər nəqd şəkildə vətəndaşlardan toplanırdı: "Amma indi yeni qaydalar tətbiq edilib. Çətinliklərimiz var və bu da əsasən qanunda nəzərdə tutulduğu kimi sənədləşdirilmiş evlərdən verginin yığılmasıdır. Ramanı ərazisində xüsusi mülkiyyət, yeni sənədli evlər çoxluq təşkil eləmir. Buna baxmayaraq, biz sakinlərlə danışıqlar aparırıq ki, vergiləri vaxtlı-vaxtında ödəsinlər. Vergilərdən daxil olan məbləğ aylar üzrə dəyişir və sabit şəkildə olmur. Elə ay olur 8 min, sonrakında 10 min vergi yığılır".

Bələdiyyə sədri deyib ki, bələdiyyə ərazisində sənədsiz evlərdə kifayət qədərdir: "Çünki Ramana da yeni yaşayış massivləri var. Şuşa şəhərciyi, 2-ci sahə, 3-cü sahə adlanan ərazilər mövcuddur. Burada da əsasən yeni tikililərdir və həmin ərazilərdə hələ sənədləşmə getməyib. Sənədli evlər ümumi yaşayış evlərinin 20-30 faizini təşkil edir.



Bələdiyyədə çalışan işçilərin əmək haqqları vaxtında ödənilir və hələ ki, əməkhaqqı borcumuz yoxdur."

İ.Rzayeva deyib ki, əhali əsasən kanalizasiya sisteminin yaxşılaşdırılması, yol infrastrukturunun normallaşdırılması ilə bağlı müraciət edir: "Bu xüsusilə yeni yaşayış massivləri ilə bağlıdır. Çünki orada hələ infrastruktur tam hazır deyil, amma evlər tikilib, sakinlər yaşayır. Belə problemlər əsasən payız-qış aylarında özünü daha çox biruzə verir.

Rayon icra hakimiyyəti ilə münasibətlərimiz çox gözəldir və rayon səviyyəsində keçirilən tədbirlərə qatılırıq. Hər zaman da müəyyən məsələlərin həllində dəstəklərini görürük".

***Bəxtiyar Məmmədli***

## Xəbərlər

### Bələdiyyələr üçün yeni metodik vəsait işıq üzü görüb

**"Bələdiyyə büdcəsinin planlaşdırılması: şəffaflıq və hesabatlılıq" metodik vəsaitinin müəllifləri Mehdi Səlimzadə, Səbuhi Yusifov və Qədir Xəlilovdur.**

Metodik vəsaitin hazırlanmasında əsas məqsəd yerli büdcə məsələləri, büdcə gəlir və xərcləri, büdcə prosesi və bu prosesə vətəndaş cəmiyyətinin cəlb edilməsi, büdcənin tərtibi və icrasıyla bağlı nümunə, misal və cədvəllərdən istifadə olunmaqla izah edilməsidir. Bununla yanaşı metodik vəsaitdə bələdiyyələrdə şəffaf büdcə siyasəti, onun əhəmiyyəti, bələdiyyə büdcəsinə nəzarət, büdcənin auditi, monitorinqi və büdcənin təhlili kimi mövzular da işıqlandılılmış və bu istiqamətdə müəyyən tövsiyyələr verilmişdir.

Almaniyanın Beynəlxalq Əməkdaşlıq Agentliyinin (GİZ) maliyyə dəstəyilə nəşr olunan metodik vəsait bələdiyyə üzvləri və qulluqçuları üçün nəzardə tutulub.

Qeyd edək ki, metodik vəsaitə rəyi iqtisadçı-ekpert Zöhrab Fərəcov yazıb.

*Belediyye.info*

### Göyçayda bələdiyyələr maarifləndirilib

**Göyçay Regional Ədliyyə Şöbəsinin akt zalında Göyçay və Zərdab bələdiyyələrinin iştirakıyla "Yerli büdcənin tərtibi və icrasına nəzarət mexanizmləri" mövzusunda seminar keçirilib.**

Tədbridə Göyçay Regional Ədliyyə Şöbəsinin aparıcı məsləhətçisi Ayaz Salehov çıxış edərək, prezidentin tənqidindən sonra bələdiyyələrin üzərinə ciddi vəzifələr düşdüyünü qeyd edib. Onun sözlərinə görə, bələdiyyələr hər atdıqları addıma diqqətlə yanaşmalı və icra mexanizmləri qanuna müvafiq şəkildə həyata keçirilməlidir. Büdcənin tərtibində ciddi səhvlərə yol verildiyindən bu günkü seminarın bələdiyyələr üçün böyük səmərəsi vardır.

Tədbirdə Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin təmsilçisi Zöhrab Fərəcov çıxış edərək bələdiyyələrə büdcə tərtibiylə bağlı məlumatlar vermiş, yerli orqanlara vacib olan məqamları onların diqqətinə çatdırmışdır. Ən əsası odur ki, bütün qərarlar qanunauyğun şəkildə kölllegiallıq qorunmaqla qəbul edilməlidir. Prezident sərəncamıyla əmlak vergisnin yığımında irəliləyişlərin olması üçün əhali arasında təbliğat işinə diqqətin artırmaq lazım gəldiyini deyən Z.Fərəcov dövlət təşkilatlarına olan borcların vaxtında qaytarılmasına diqqətli olmalarını da qeyd edib.

***

Göyçay Regional Ədliyyə Şöbəsinin akt zalında Ucar, Ağdaş , Şamaxı və Kürdəmir bələdiyyələrinin iştirakıyla "Yerli büdcənin tərtibi və icrasına nəzarət mexanizmləri" mövzusunda növbəti seminar keçirilib.

Tədbridə Göyçay Regional Ədliyyə Şöbəsinin aparıcı böyük məsləhətçisi Teymur Mustafayev çıxış edərək bələdiyyələrin üzərinə düşən vəzifələrdən danışaraq bələdiyyyə tərəfindən qəbul edilən aktların şöbəyə vaxtında verilməsini və şöbə əməkddaşalaır tərəfindən irəli sürülən təklif və tövsiyyələrə diqqətlə yanaşnalı olduqlarını bildirib. Yeni seçilən bələdiyyə üzvlərinin xeyli hissəsi yenidir və təcrübəsizidir. Odur ki , büdcənin tərtibində bu günkü seminarın bələdiyyələr üçün əhəmiyyət böyük olacaqdır.

Tədbirdə Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin təmsilçisi Zöhrab Fərəcov çıxış edərək bələdiyyələrə büdcə tərtibiylə bağlı məlumatlar vermiş, yerli orqanlara vacib olan məqamları onların diqqətinə çatdırmışdır. Z.Fərəcovun sözlərinə görə, ən əsası odur ki, bütün qərarlar qanunauyğun şəkildə tərtib olunmalıdır. Prezident sərəncamıyla əmlak vergisnin yığımında irəliləyişlərin olması üçün əhali arasında təbliğat işinə diqqətin artırmaq lazım gəldiyini deyən Z.Fərəcov dövlət təşkilatlarına olan borcların vaxtında qaytarılmasına diqqətli olmalarını da qeyd edib.

*Belediyye.info*

### İyulda daşınmaz əmlakın icbari sığortası üzrə 7 min 893 müqavilə bağlanıb

**İcbari Sığorta Bürosundan (İSB) verilən məlumata görə, ötən ay daşınmaz əmlakın icbari sığortası üzrə daxil olan sığorta haqlarının məbləği isə 1,3 milyon manat təşkil edib.**

Daşınmaz əmlakın icbari sığortası müqavilələrinin 69,35 faizi yaşayış evləri və mənzillər, 0,38 faizi inzibati binalar, 30,27 faizi isə digər daşınmaz əmlakla bağlı olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə daşınmaz əmlakın icbari sığortası müqavilələrinin sayında 4,9 faiz, sığorta haqlarının məbləğində isə 9,4 faiz azalma müşahidə edilib.

İyulda daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə 369, sərnişinlərin icbari fərdi qəza sığortası üzrə 9 sığorta müqaviləsi bağlanılıb. Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə daxil olan sığorta haqları 27 min 930 manat, sərnişinlərin icbari fərdi qəza sığortası üzrə daxil olan sığorta haqları isə 1 819 manat təşkil edib.

***AZƏRTAC***

BƏLƏDİYYƏ HƏYATI

BƏLƏDİYYƏLƏR YERLİ ÖZÜNÜİDARƏETMƏNİN DEMOKRATİK FORMASIDIR

# KORRUPSİYAYA QARŞI MÜBARİZƏDƏ BƏLƏDİYYƏLƏR ÖZ SÖZÜNÜ DEMƏLİDİR



*İlqar Eyyubov*
*Xaçmaz Regional Ədliyyə şöbəsinin məsləhətçisi*

Azərbaycanda yerli özünüidarəetmə prinsipi ilk olaraq 1995-ci ildə qəbul edilmiş müstəqil dövlətimizin ilk Konstitusiyasında təsbit olunub. Ötən dövr ərzində "Yerli özünüidarəetmə haqqında" Avropa Xartiyasının müddəaları əsas götürülərək yerli özünüidarənin mühüm sahələrini tənzimləyən yeni qanunvericilik aktları qəbul edilib, bəzilərinə dəyişiklik və əlavələr olunaraq daha da təkmilləşdirilib. Qeyd edilməlidir ki, 1999-cu ildə ilk bələdiyyə seçkilərindən sonra respublikamızda yerli demokratiya və özünüidarəetmə orqanlarının inkişafı sahəsində olduqca önəmli işlər görülmüşdür. Bələdiyyələrin fəaliyyətinin müasir tələblər səviyyəsində qurulmasına, onların iqtisadi resurslarından səmərəli istifadə olunması və yerli əhəmiyyətli məsələlərin həllində rolunun artırılmasına xüsusi diqqət yetirilmişdir.

Bu gün regional ədliyyə şöbələrinin funksiyalarından biri də bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət və onlara metodiki yardımın göstərilməsindən ibarətdir. Məhz Ədliyyə Nazirliyinin mərkəzi və regional strukturları tərəfindən ötən dövrdə bələdiyyələrə metodoloji yardım göstərilmiş, bələdiyyə üzvləri və qulluqçularının hüquqi maarifləndirilməsi üzrə ardıcıl tədbirlər həyata keçirilmişdir. Həmçinin yerli özünüidarəetmə orqanları tərəfindən yol verilən qanun pozuntularının qarşısının alınması və korrupsiya hüquq pozmalarının aşkar edilməsi istiqamətində ardıcıl tədbirlər görülmüş, bu sahədə Bələdiyyələrlə İş Mərkəzi vasitəsilə prokurorluq orqanları ilə qarşılıqlı əlaqələr qurulmuşdur.

***

Korrupsiya ilə mübarizə sahəsində ölkədə aparılan işlər ildən-ilə daha da təkmilləşdirilir. Bu sahədə atılan ən başlıca addımlardan biri də 13 yanvar 2004-cü ildə "Korrupsiyaya Qarşı Mübarizə Haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul olunmasıdır. Bu qanun korrupsiya ilə əlaqədar hüquqpozmaların aşkar edilməsi, qarşısının alınması və nəticələrinin aradan qaldırılmasına, sosial ədalətin, insan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiə olunmasına, iqtisadiyyatın inkişafı üçün əlverişli şəraitin yaradılmasına, dövlət orqanlarının və yerli özünüidarəetmə orqanlarının, vəzifəli şəxslərin fəaliyyətinin qanuniliyinin, şəffaflığının və səmərəliliyinin təmin edilməsinə yönəlmişdir. Qanun, habelə dövlət orqanlarına əhalinin etimadının möhkəmləndirilməsi, peşəkar kadrların dövlət orqanlarında və yerli özünüidarəetmə orqanlarında qulluğa qəbula həvəsləndirilməsi, həmin şəxslərin korrupsiya ilə əlaqədar hüquqpozma törətməsini istisna edən şəraitin yaradılması məqsədini daşıyır. Qeyd edək ki, Qanuna əsasən Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada yerli özünüidarəetmə orqanlarına seçilmiş şəxslər və yerli özünüidarəetmə orqanlarında təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını həyata keçirən şəxslər korrupsiya ilə əlaqədar hüquqpozmaların subyektləri hesab olunurlar. Korrupsiya ilə əlaqədar hüquqpozmalar bilavasitə korrupsiya hüquqpozmalardan və korrupsiyaya şərait yaran hüquqpozmalardan ibarətdir ki, bunlardan 7-si korrupsiya hüquqpozmaları 13-ü isə korrupsiyaya şərait yaradan hüquqpozmalardır.

Korrupsiya ilə əlaqədar hüquqpozmalar qanunvericiliklə müəyyən edilmiş qaydada intizam, mülki-hüquqi, inzibati və ya cinayət məsuliyyətinə səbəb olur. Vəzifəli şəxs tərəfindən bilavasitə korrupsiya hüquqpozmaları və ya korrupsiyaya şərait yaradan hüquqpozmaların törədilməsi mülki-hüquqi, inzibati və ya cinayət məsuliyyəti yaratdıqda isə vəzifəli şəxsin məsuliyyətə cəlb edilməsi Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun həyata keçirilir. Bununla bağlı qeyd etmək istərdi ki, 2014-cü il ərzində Xaçmaz regional ədliyyə şöbəsinin yurisdiksayasına aid olan 2 bələdiyyə barədə materiallar cinayət işi ilə bağlı araşdırılması üçün Bələdiyyələrlə İş Mərkəzi vasitəsilə Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə göndərilmişdir. Əlavə olaraq qeyd etmək istərdim ki, ötən il ərzində 19 bələdiyyə barəsində 20 inzibati protokol tərtib olunaraq onlar inzibati məsuliyyətə cəlb olunmuşlar. Xatırladaq ki, korrupsiya ilə əlaqədar hüquqpozmalara görə intizam məsuliyyəti tədbirləri bu Qanunla və digər qanunvericilik aktları ilə tənzimlənir.

Qanunun 9-cu maddəsində nəzərdə tutulmuş hüquqpozmaların törədilməsi inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda, xüsusi hallara riayət edilməklə qanunvericiliklə müəyyən edilmiş qaydada intizam məsuliyyətinə səbəb olur. Məsələn: Azərbaycan Respublikasınınqanunvericiliyi ilə müəyyən edilmiş qaydada yerli özünüidarəetmə orqanlarına seçilmiş şəxslər bilavasitə korrupsiya hüquqpozmaları və ya korrupsiyaya şərait yaradan hüquqpozmaları törətdikdə, korrupsiyaya qarşı mübarizə aparan orqan bu barədə müvafiq seçki komissiyasına məlumat verir. Həmin seçki komissiyası isə bu barədə materiallar ona daxil olduğu gündən beş gün ərzində şəxsin yol verdiyi hüquqpozma barədə onun seçildiyi yerli özünüidarəetmə orqanına məlumat verir.

Korrupsiyaya qarşı mübarizə sahəsində mühüm hüquqi aktlardan biri də Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə " və "Korrupsiyaya qarşı mübarizəyə" dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planıdır.Korrupsiyaya qarşı mübarizəyə dair Milli Fəaliyyət Planının 11-ci bəndi Bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsinə həsr edilmişdir. Həmin bənd 3 hissədən ibarətdir:

-Birinci hissə bələdiyyələrin aparatlarında qulluğa qəbulun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsi ilə bağlı təkliflərin hazırlanmasını özündə ehtiva edir. Bu məsələ ilə bağlı artıq "Bələdiyyə qulluğu haqqında" qanunda olunan dəyişiklik və əlavələr 10 aprel 2015-ci il tarixindən qüvvəyə minib.

- İkinci hissə bələdiyyə qulluqçuları üçün korrupsiyaya qarşı mübarizə məsələləri üzrə tədris kurslarının, treninqlərin və seminarların təşkilidir. Eyni zamanda qeyd etmək istərdik ki, 2014-cü ildə CTZ Alman təşkilatının təşəbbüsü və Xaçmaz regional ədliyyə şöbəsinin təşkilatçılığı ilə keçirilən seminarda, eləcə də digər tədris kurslarında şöbənin ərazi yurisdiksiyasına aid olan 385 bələdiyyə üzvünün iştirakı ilə tədbirlər keçirilmişdir.

- Üçüncü hissə bələdiyyə qulluçularının etik davranış qaydalarının hazırlanması ilə bağlıdır. Bu məsələ ilə əlaqədarqeyd etmək istərdim ki, "Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında" qanunun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə 10.06.2015-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti tərəfindən müvafiq sərəncam imzalanıb. Bu Qanun layihəsi 3 fəsil, 20 maddədən ibarətdir. Bu qanunun əsas məqsədi yerli özünüidarə orqanlarının nüfuzunun artırılması, vətəndaşların bələdiyyə qulluqçularına etimadının yüksəldilməsidir. Bələdiyyə üzvlərinin peşəkarlığının və fərdi məsuliyyətinin artırılması üçün layihədə tapşırıqların yerinə yetirilməsi, loyallıq, mədəni davranış, qərəzsizlik, korrupsiyanın qarşısınının alınması kimi məsələlər öz əksini tapıb, həmçinin hədiyyə qəbul etmə ilə əlaqədar məhdudiyyətlər ehtiva olunub. Qanunda eyni zamanda bələdiyyə qulluqçuları tərəfindən etik davranış qaydalarının pozulmasına görə məsuliyyət, intizam icraatına başlanması halları və intizam məsuliyyətinin növləri öz əksini tapıb.

***

Bələdiyyələrin fəaliyyətində şəffaflığın artırılması diqqət mərkəzində olmalıdır. Dövlət və yerli özünüidarəetmə orqanlarında şəffaflığın artırılması korrupsiyaya qarşı mübarizə və insan hüquqlarının müdafiəsi sahəsində aparılan islahatların bir hissəsidir.

Bu istiqamətdə mühüm hüquqi aktlardan biri də Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyə Planı"-dır.

Qeyd olunan sərəncamın qəbul olunmasının məqsədi:

- "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya" çərçivəsində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi;
- dövlət və yerli özünüidarə orqanlarının fəaliyyətinin açıq hökumət prinsiplərinə uyğunlaşdırılması;
- qərarların qəbulu prosesində ictimaiyyətin iştirakının genişləndirilməsi və şəffaflığın artırılmasıdır.

"Açıq Hökumətin Təşviqinə dair Milli Fəaliyyət Planında"həmçinin yerli büdcənin tərtibinə və icrasına, o cümlədən sərf edilən vəsaitin təsdiq edilmiş büdcə göstəricilərinə uyğunluğuna, habelə bələdiyyələrin maliyyə hesabatlarının vaxtında təsdiq olunmasına nəzarət mexanizmlərinə və prosedurlarına dair məsələlər öz əksini tapmışdır.

Bələdiyyələrin fəaliyyətində şəffaflığın artırılması ilə bağlı tədbirlər planı Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "AZƏRBAYCAN 2020: GƏLƏCƏYƏ BAXIŞ" inkişaf konsepsiyasında da öz əksini tapmışdır. Belə ki, informasiya cəmiyyətinə keçidin təmin edilməsi, innovasiya yönümlü və biliyə əsaslanan iqtisadiyyatın qurulması, dövlət və yerli özünüidarəetmə orqanlarında İKT-nin tətbiqinin və elektron xidmətlərin, həmçinin informasiya təhlükəsizliyi sahəsində fəaliyyətin genişləndirilməsi, cəmiyyətin informasiya məhsul və xidmətlərinə tələbatının dolğun ödənilməsi, rəqabətqabiliyyətli və ixrac yönümlü İKT potensialının gücləndirilməsi, yüksəkixtisaslı mütəxəssislərin və elmi kadrların hazırlanmasıkonsepsiya çərçivəsində qarşıda duran prioritet vəzifələrdən hesab olunur. Azərbaycan Respublikasında yerli özünüidarə vətəndaşların fəaliyyətinin təşkilinin elə bir sistemidir ki, bu sistem onlara yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst şəkildə həll etmək, əhalinin mənafeyi naminə dövlət işlərinin bir hissəsini yerinə yetirmək imkanı verir.

***

İlk bələdiyyə seçkiləri ərəfəsində Ümummilli Lider Heydər Əliyev xalqa müraciətində demişdir: "Yerli özünüidarəetmə orqanları yerlərdə onların səlahiyyətləri çərçivəsində, qanun çərçivəsində çox işlər görə bilərlər. Beləliklə, onlar dövlətin də gördüyü işlərin böyük bir hissəsini öz üzərlərinə götürəcəklər, dövlətin də yükünü müəyyən qədər yüngülləşdirəcəklər."

Bu gün əminliklə demək olar ki, 2015-ci il də Cənab Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi inkişaf strategiyasının Azərbaycana bəxş etdiyi yeni mühüm nailiyyətlərlə zəngin bir il kimi tarixə yazılacaq və bu inkişafda bələdiyyələrin də fəaliyyəti kifayət qədər nəzərə çarpacaq.

# Bələdiyyə altı ayda 15 min manat qazanıb

Qala bələdiyyəsindən Belediyye.info saytına daxil olan məlumata görə, 2015-ci ilin 6 ayı ərzində bələdiyyə büdcəsinə 15.840 manat vəsait daxil olub. Bu vəsaitin 400 manat qəsəbənin aztəminatlı sakinlərinə maddi yardım şəklində verilib. İki min manata yaxın vəsait qəsəbədə aparılan abadlıq işlərinə sərf edilib. Ümumilikdə xərclərin həmi 14.889 manat olub.

***Belediyye.info***

# Lökbatan bələdiyyəsinin hesabatı

**Lökbatan bələdiyyəsi cari ilin 6 ayı ərzində qəsəbədə aparılan sosial-iqtisadi məsələlərin həllində yaxından iştirak edib.**

Qəsəbə bələdiyyəsi tərəfindən H. Məmmədov küçəsi 1, 5 saylı binaların yaxınlığında, Nizami küçəsi 5 ünvanında və S.Orucov döngəsində üç ünvanda zibil qutularının yerləşdirliməsi üçün meydança tikilərək istifadəyə verilib. B.Niftəliyev küçəsi, VIII massiv, 31A saylı binanın arxa hissəsi və 6-cı massiv IA küçəsində 3800 m2 asfalt altı hazırlıq işləri görülüb. S.Orucov küçəsi, Müsəvi küçəsi və III massiv I küçədə 5 ədəd kanalizasiya lüku bərpa edilib.

Ötən altı ay ərzində bələdiyyə tərəfindən 2000 m2 asfalt örtüyü vurulub. II massiv və III massivdə dağ yamaclarından sel sularının gətirdiyi daş qırıntıları, qum və torpaq, eyni zamanda S.Orucov küçəsində torpaq və inşaat materiallarının qalıqları yığılıb daşınmışdır.

Lökbatan bələdiyyəsinin fəaliyyət göstərdiyi inzibati binanın dam örtüyü cari təmir edilmişdir, yanğın təhlükəsizliyinin təmin edilməsi üçün bələdiyyənin fəaliyyət göstərdiyi inzibati binanın elektrik xətləri dəyişdirilib. İş otaqları təmir edilib. Şəffaflığın təmin edilməsi üçün işlərdə həyata keçirilərək bələdiyyə işçilərinin əmək haqqlarının plastik kartlarla ödənilməsi həyata keçirilərək, vergi ödəyicilərinin uçotunun dəqiqləşdirilməsi üzrə işlər həyata keçirilib.

Müsbət nəticələr əldə edilərək ötən illərlə müqayisədə torpaq və əmlak vergilərinin toplanmasında ciddi irəliləyiş əldə edilib. Belə ki, 2014-cü ilin 6 ayı ərzində beş min doqquz yüz on dörd manat altmış qəpik torpaq əmlak vergisi toplanmışdısa, cari ilin 6 ayı ərzində otuz beş min beş yüz əlli doqquz manat altmış altı qəpik vergi yəöılmışdırtoplanmışdır. Torpaq vergisinin toplanması ötən ilin 6 ayı ilə müqaisədə 2,4 dəfə, əmlak vergisi isə 9,6 dəfə çox olmuşdur. Buda ötən illə müqaisədə ümumilikdə 6 dəfədən çox olmuşdur. Torpaq və əmlak vergiləri tədiyyə bildirişi paylanılaraq bank və poçt vasitəsi ilə toplanılmaqdadır, torpaq və əmlak vergilərinin toplanılması üçün əhali arasında geniş maarifləndirmə işləri aparılmış, məhəllələrdə Məhəllə Komitələri yaradılmış və bu işlər hal-hazırda davam etdirilir. Vergi və ödənişlərin ödəyicilərinin uçotunun dəqiqləşdirilməsi başa çatdırılmaq üzrədir. Hazırda bu işlər davam etdirilməkdədir, Lökbatan bələdiyyəsində iş şəraitinin yaxşılaşdırılması üçün iş otaqları kompütor, kondisioner, iş masaları və digər texniki avadanlıqlarla təmin edilərək iş şəraiti yaxşılaşdırılmışdır. Rəhmətə qetmiş imkansız qəsəbə sakinlərinin, şəhid ailələrinin, yas mərasimi təşkil edilmiş eyni zamanda imkansız qəsəbə sakinlərinə maddi yardımlar göstərilmişdir.

Lökbatan qəsəbəsi ərazisində fəaliyyət göstərən orta məktəblərin VIII sinif şaqirdləri arasında inşa yazı müsabiqəsi keçirilərək qaliblər mükafatlandırılıb. Cari ilin 6 ayı ərzində Lökbatan bələdiyyəsinə əlli dörd müraciət daxil olmuşdur bu müraciətlərin otuz yeddisi həll edilib, on ikisi qismən həll edilib, beşi müraciətlə bağlı maarifləndirmə işlər aparılıb. Lökbatan bələdiyyəsində idarədaxili nizam-intizam qaydaları gücləndirilmiş, texniki təhlükəsizlik qaydalarına əməl edilməsi barədə işçilər təlimatlarla tanış edilib. Hazırda Lökbatan qəsəbəsi I yaşayış massivində küçələrin işıqlandırılması üçün küçə işıqlarını çəkilməsi ilə bağlı hazırlıq işləri həyata keçirilir.

Eyni zamanda həmin yaşayış massivində asfalt altı hazırlıq işləri icra edilməsi üzrə həyata keçirilmək üzrədir.

# "Bələdiyyə kuboku" uğrunda futbol turniri davam edir



**Sumqyıt bələdiyyəsindən Belediyye.info saytına daxil olan məlumatda bildirilir ki, şəhər bələdiyyəsinin dəstəyi və təşkilatçılığı ilə məhəllə komitələrinin 11-12 yaşlı uşaqlardan ibarət futbol komandaları arasında keçirilən "Bələdiyyə kuboku" uğrunda futbol turniri davam edir.**

Ənənəvi olaraq 2006-cı ildən başlayaraq təşkil edilən "Bələdiyyə kuboku" uğrunda budəfəki 10-cu - yubiley turnirində məhəllə komitələri tərəfindən təşkil edilmiş 20 komandanın tərkibində 300-ə qədər uşaq özlərinin ilkin futbolçu bacarıqlarını nümayiş etdirirlər. Azərbaycanın Əməkdar məşqçisi Ağamusa Bağırovun baş hakim olduğu builki futbol yarışlarında 40-a qədər oyun keçirilib.

Avqustun sonlarında başa çatacaq turnirin qalibləri Təşkilat komitəsi tərəfindən «Bələdiyyə kuboku» və fəxri fərmanlarla təltif ediləcəklər.

***Belediyye.info***

## ALLAH RƏHMƏT ELƏSİN

Mingəçevir Bələdiyyəsinin kollektivi Ədliyyə Nazirliyi Bələdiyyələrlə İş Mərkəzinin məsləhətçisi Dilrüba İsayevaya anası

**Sabiqə xanımın vəfatından**

kədərləndiyini bildirir və dərin hüznlə baş sağlığı verir.

---

Mərdəkan Bələdiyyəsinin kollektivi Ədliyyə Nazirliyi Bələdiyyələrlə İş Mərkəzinin məsləhətçisi Dilrüba İsayevaya anası

**Sabiqə xanımın vəfatından**

kədərləndiyini bildirir və dərin hüznlə baş sağlığı verir.

**"Bələdiyyə həyatı" qəzetinə abunə olmağa tələsin**

*Qəzetin illik abunə haqqı 67 (altmış yeddi) manatdır.*

**"Bələdiyyə həyatı" qəzeti redaksiyasının abunə rekvizitləri**

Adı: "ATRABANK" ASC
Kodu: 507525 VÖEN: 9900010231
Müxbir hesabı:
AZ94NABZ01350100000000025944
S.W.I.F.T. BİK ATRAAZ22

**"BƏLƏDİYYƏ HƏYATI" QƏZETİ MMC**
**HESAB N_**
**AZ11ATRA40090048000000000064**
**VÖEN: 1001116461**



Təsisçi: T.Səlimzadə

Redaktor: Vüqar TOFİQLİ

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Beşir Səfəroğlu küçəsi 141. AZ1009*
Tel: (012) 594-47-35
Mob: (+994 050) 221-28-14

Qəzet Ədliyyə Nazirliyində qeydə alınmışdır. 17.02.2003

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Faktlara görə müəlliflər məsuliyyət daşıyır.

Adı: "ATRABANK" ASC
Kodu: 507525 VÖEN: 9900010231
Müxbir hesabı:
AZ94NABZ01350100000000002594
S.W.I.F.T. BİK ATRAAZ22
"Bələdiyyə həyatı" qəzeti MMC
Hesab N_
AZ11ATRA40090048000000000644
VÖEN: 1001116461

Dizayner: Zaur ƏLİYEV

"Azərbaycan" nəşriyyatında çap olunub

Sifariş: 2568
Tiraj: 2000